# AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİ
# MİLLİ MÜDAFİƏ UNİVERSİTETİ

AZ1065, Bakı şəhəri, Yasamal rayonu,
“Qırmızı Şərq” hərbi şəhərciyi

Tel: (+99412) 404-18-31
E-mail: mmu@mod.gov.az

“23” yanvar 2023 il №184

Elmi katibə x.e. mürsdaşları məlumatlandırsın 30.01.2023

H. İbrahimova X.e. baxasınız. 30.01.2023

**Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Fizika İnstitutunun baş direktoru, akademik Arif Həşimova**

**Hörmətli Arif müəllim!**

3 – 4 may 2023-cü il tarixdə Azərbaycan Respublikası Müdafiə nazirinin rəhbərliyi ilə Milli Müdafiə Universitetində Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş “Hərb sənətinin aktual problemləri” mövzusunda respublika elmi-praktik konfransı keçiriləcəkdir. Rəhbərlik etdiyiniz təşkilatdan konfransda iştirak etmək istəyənlər öz tezislərini tələblərə uyğun qaydada Milli Müdafiə Universitetinin ünvanına poçt və ya elektron poçt vasitəsilə göndərə, həmçinin Milli Müdafiə Universitetinin Hərbi Elmi Tədqiqat İnstitutunun redaksiya şöbəsinə təqdim edə bilərlər. Redaksiya heyəti tərəfindən müsbət rəy verilən tezislər konfransın materialları toplusunda nəşr olunacaqdır.

Qoşma: konfransa təqdim edilən tezislərə qoyulan tələblər, 1 (bir) vərəqdə.

Hörmətlə,

**rektor**

**professor** **Heydər Piriyev**

Azərbaycan Milli Elmlər Akademiyası
Fizika İnstitutu
Daxil olma № 09
"27" 01 2023

**Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş "Hərb sənətinin aktual problemləri" mövzusunda respublika elmi-praktik konfransa təqdim edilən tezislərə qoyulan**

## TƏLƏBLƏR

1. Konfransın bölmələri:
   - Milli təhlükəsizlik;
   - Hərbi elmlər;
   - Texniki elmlər;
   - Humanitar elmlər;
   - Hərbi təbabət.
2. Tezis təqdim olunan zaman aşağıdakı tələblər nəzərə alınmalıdır:
   - tezis azərbaycan, rus və ingilis dillərindən birində təqdim oluna bilər;
   - mətn ölçüləri: A4 formatında sol və sağ – 2 sm, yuxarı və aşağı – 2 sm, Times New Roman – 12, sətirlərarası interval – 1,0;
   - tezisin həcmi: 2 səhifədən artıq olmamalıdır;
   - bir müəllifin eyni bölməyə birdən artıq tezisi qəbul olunmur.
3. Tezis aşağıdakı ardıcıllıqla hazırlanmalıdır:
   - tezisin adı – ortadan, böyük hərflərlə, qalın şriftlə;
   - müəlliflərin adı, soyadı, atasının adı – ortada;
   - müəlliflərin iş yeri və şəhər – ortada;
   - e-mail ünvanı – ortada;
   - açar sözlər: məruzənin adına və məzmununa uyğun 3-4 əsas anlayış;
   - tezisin mətni;
   - istifadə edilmiş ədəbiyyat siyahısı.

4. Tezisdə cədvəl və şəkillər nömrələnir: cədvəl – cədvəlin yuxarısında, sağdan (məs., Cədvəl 1), şəkil – şəklin altında, ortadan (məs., Şəkil 1) və mətn hissədən (yuxarıdan və aşağıdan) 1 boş sətir buraxmaqla göstərilir.

5. Riyazi ifadələr MS Word proqramının düstur redaktoru (Equation) ilə tərtib olunur. Mətndə ancaq istifadə olunan düsturlar nömrələnir. Düstur sətrin ortasında, nömrəsi sağda mötərizədə yazılır.

6. İstifadə edilmiş ədəbiyyat siyahısı: Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının tələblərinə müvafiq qaydada yazılmalı, hər bir istinad olunan mənbənin adı tərcümə olunmadan, tezisdə istifadə olunma ardıcıllığına uyğun olaraq nömrələnməlidir.

7. Konfransa təqdim olunmuş və təşkilat komitəsinin üzvləri tərəfindən müsbət rəydən keçmiş tezislər müəlliflər tərəfindən vəsait ödənilmədən materiallar toplusunda dərc olunacaqdır.

Tezislər aşağıda göstərilən ünvana elektron şəkildə təqdim edilə və ya qeyd olunan e-mailə göndərilə bilər.

**Ünvan:** Bakı şəhəri, Yasamal rayonu, "Qızıl Şərq" hərbi şəhərciyi, Milli Müdafiə Universitetinin Hərbi Elmi Tədqiqat İnstitutu, Redaksiya şöbəsi.

**E-mail:** mmu-heti@mod.gov.az

## VACİB TARİXLƏR

**31 mart 2023-cü il** – Materialların elektron versiyasının təqdim edilməsinin son tarixi.
**18 aprel 2023-cü il** – Konfransın proqramının göndərilməsi.

**Əlaqə telefonları:** (+994) 51 863 43 54 (WhatsApp);
(+994) 51 509 34 06 (WhatsApp).